**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞI DÖVLƏT İDARƏÇİLİYİ SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI MEXANİZMİ KİMİ

Ixtisas: 5909.01 "Dövlət idarəçiliyi"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Aysel Şamil qızı Quliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı- 2025**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | siyasi elmlər doktoru, professor<br>**Həbibova Ziyafət Ziya qızı** |
| Rəsmi opponentlər: | siyasi elmlər doktoru, professor<br>**Adil Mirabdulla oğlu Mirabdullayev** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Vasif Sultan oğlu İsmayılov** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Elvin Bəhruz oğlu Talışinski** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | akademik<br>**Urxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi: | siyasi elmlər doktoru, dosent<br>**Sevda Ağamirzə qızı Əliyeva** |
| Elmi seminarın sədri: | siyasi elmlər doktoru, professor<br>**Aqiyə Həbib qızı Naxçıvanlı** |

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dövlət-özəl tərəfdaşlıq üzrə tədqiqat mövzusu iqtisadi inkişaf, sosial problemlərin həlli və dövlət idarəçiliyinin səmərəliliyinin artırılması ilə bağlı olduğu üçün müasir dünyada olduqca aktualdır. Bu məsələlər sürətlə və dinamik şəkildə inkişaf edən müasir Azərbaycan dövlətçiliyi üçün də xüsusi əhəmiyyət kəsb edir.

Dövlət-özəl tərəfdaşlıq (PPP) birgə infrastruktur layihələrinin həyata keçirilməsi və ya dövlət xidmətlərinin göstərilməsi sahəsində hökumət və özəl sektor arasında əməkdaşlıq formasıdır. Bu model qarşılıqlı faydalı nəticələr əldə etmək üçün hər iki tərəfin resurslarını və təcrübəsini birləşdirməyə imkan verir.

Dövlət-özəl sektor tərəfdaşlığının araşdırılmasının aktuallığı bir neçə aspektdə özünü göstərir:

1. İqtisadi inkişaf: PPP biznes və investisiyaların inkişafına kömək edir, infrastruktur layihələrinin həyata keçirilməsi və yeni iş yerlərinin yaradılması üçün özəl maliyyə resurslarını cəlb edir. Bu, dövlət maliyyə resurslarının məhdud olduğu inkişaf etməkdə olan ölkələr üçün xüsusilə vacibdir.

2. Sosial problemlərin həlli: PPP təhsil, səhiyyə, mənzil tikintisi və nəqliyyat xidmətlərinin əlçatanlığının və keyfiyyətinin artırılması kimi sosial problemlərin daha səmərəli həllinə imkan verir. Dövlət vəsaitləri və şəxsi təcrübənin birləşdirilməsi xərcləri optimallaşdırmağa və göstərilən xidmətlərin keyfiyyətini yaxşılaşdırmağa imkan verir.

3. İnnovativ inkişaf: PPP innovasiya və texnologiyanın inkişafına kömək edir, çünki özəl sektor daha çox çevikliyə və innovasiya etmək qabiliyyətinə malikdir. Özəl şirkətlərlə əməkdaşlıq dövlətə öz təcrübə və resurslarından istifadə edərək yeni texnologiyalar və metodları ictimai sahələrə tətbiq etməyə imkan verir.

4. Dövlət idarəçiliyinin səmərəliliyi: PPP dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasına kömək edir, çünki özəl şirkətlərin cəlb edilməsi layihələrin icrasına daha şəffaf idarəetmə və nəzarət etməyə imkan verir. PPP həmçinin özəl sektorun ən yaxşı təcrübələrindən istifadə etməklə dövlət xidmətlərinin yaxşılaşdırılmasına kömək edir.

Beləliklə, dövlət-özəl sektor tərəfdaşlığı problematikasının tədqiq edilməsi dövlətin sosial-iqtisadi inkişafında yüksək nailiyyətlərin əldə

olunması üçün bu əməkdaşlıq modelindən optimal istifadəyə dair tövsiyələr və təlimatların hazırlamasına imkan verir.

DÖST-ün, dissertasiya işi səviyyəsində elmi tədqiqi bir neçə səbəbə görə Azərbaycan üçün aktualdır. Azərbaycan öz iqtisadiyyatını şaxələndirmək və neft-qaz sektorundan asılılığını azaltmaq məqsədi daşıyır. DÖST-ün tədqiqi özəl investisiyaları cəlb etməklə, innovasiyaları təşviq etməklə və məşğulluq imkanları yaratmaqla iqtisadi inkişafa töhfə verə bilər və Azərbaycan üçün iqtisadi səmərələrin maksimuma çatdırılması üçün effektiv strategiyalar haqqında fikirlər verə bilər. Onun aktuallığı sadəcə bununla da məhdudlaşmır. Azərbaycan infrastrukturun inkişafını davamlı inkişaf üçün prioritet kimi müəyyən etmişdir. İnfrastruktur kontekstində DÖST-ün öyrənilməsi özəl sektorun iştirakı üçün ən uyğun sektorları və layihələri müəyyən etməyə, müvafiq sahədəki təşəbbüslərin mümkünlüyünü və maliyyə dayanıqlığını qiymətləndirməyə və risklərin bölüşdürülməsi mexanizmlərini araşdırmağa kömək edə bilər. Ona görə də bu akademik tədqiqat Azərbaycanda əlaqədar dövlət orqanlarına DÖST vasitəsilə infrastruktur layihələrinin səmərəli planlaşdırılması və həyata keçirilməsində dəyərli təlimatlar verə bilər.

Dövlət-özəl sektor tərəfdaşlığının tədqiqi Azərbaycan siyasi elmi üçün, eləcə də dövlət idarəçiliyinin səmərəliliyinin artırılması üçün xüsusi aktuallıq kəsb edir. Çünki bu sahə iqtisadi inkişafa töhfə verə, infrastruktur ehtiyaclarını həll edə, göstərilən xidmətləri təkmilləşdirə, idarəetməni və hesabatlılığı gücləndirə, davamlı inkişafı təşviq edə və bu sahədəki beynəlxalq təcrübəni öyrənməyə imkan verə bilər.

Dövlət-özəl tərəfdaşlığının bir çox təriflərinə nüfuzlu beynəlxalq təşkilatların sənədlərində rast gəlinir. Bura BMT, Avropa İttfaqı və Dünya Bankı aid edilə bilər. Bu təşkilatların verdiyi tərifə görə DÖST dövlət orqanları və biznes arasında xüsusi əməkdaşlıq forması olub əsas məqsədi infrastruktur obyektlərinin yaxud xidmət sahələrinin maliyyələşdirilməsi, qurulması, bərpası və idarə olunması üzrə ixtiaslaşmış idarəetmə mexanizmidir.

Onu qeyd etmək lazımdır ki, DÖST-lə bağlı ilkin nəzəri yanaşmalara iqtisadi nəzəriyyələrdə rast gəlinir. İlk belə yanaşmalara klassik siyasi iqtisad məktəbinin nümayəndələri A. Smit və C.Millin tədqiqatlarında yer verilmişdir. Daha sonra dövlətin iqtisadi sferaya müdaxiləsi problemi neoklassik iqtisadi məktəbin təmsilçiləri tərəfindən

araşdırılır. Onların sırasında C.Klark[1], L.Valras[2], A.Piqu[3] dövlət-özəl sektor subyektləri arasında qarşılıqlı əlaqələrin məzmununa xüsusi diqqət yetirirlər.

XX əsrin 20-30-cu illərində neoliberalizm təmsilçiləri F.Fon Hayek[4], L.Fon Mizes[5] dövlətin özəl sektora müdaxiləsi problemini və özəl sektor təmsilçilərinin sosial öhdəlikləri məsələlərini işıqlandırırlar.

Dövlət-özəl sektor tərəfdaşlığı daha konseptual və sistemli şəkildə Keynsçilik məktəbinin nümayəndələri tərəfindən araşdırılır. Bu cərəyanın təmsilçiləri qismində C.Keyns[6], dirijizm məktəbinin nümayəndəsi F.Piqu, C.Tobbin neokeynsçiliyin nümayəndəsi E. Hansen[7] çıxış edir.

XX əsrin 50-cı illərindən başlayaraq dövlət özəl sektor tərəfdaşlığı təkcə iqtisadi problematika çərçivəsindən çıxır. Britaniya birliyinə daxil olan ölkələrdə, xüsusən Avstraliyada, Böyük Britaniya və Kanadada DÖST-lər idarəetmə menecment problemi kimi nəzərdən keçirilir. Böyük Britaniyada konkret olaraq DÖST-lər idarəetmə problematikası kimi tədqiq olunmağa başlayır. Bu sahədə ilk pionerlər M.Bult-Spirinq[8] və Q.Devult[9] olur. Onlar ilk dəfə DÖST-lərin 9 tipli

---

[1] Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı, Elm, 2006. 509 səh

[2] Мостепанюк А.В. Формирование научных взглядов на сотрудничество государства и частного капитала в рыночной экономике. Современная наука №3 (3) 2010. Стр. 182-186

[3] Həmən mənbə

[4] Хутидзе Тимур Мурманович (2015). Фридрих фон Хайек и экономическая мысль неоавстрийской школы. Вестник Волгоградского государственного университета. Серия 9: Исследования молодых ученых, (13), 77-81.

[5] Мизес Л. фон. Либерализм / Пер. с англ. М.: Экономика, Социум, 2001

[6] В.С.Каменков , О. М. Куницкая: Правовое обеспечение развития государственно-частного партнёрства в зарубежных странах. Журнал Юридической науки Белорусского государственного университета. Выпуск 1/2013

[7] Aydin U.S., Uste, A.N. Review of new political risks for the multinational energy corporations in the Caspian basin: a study for Azerbaijan, Transnational Corporations Review, 2022

[8] Bult-Spiering M., Dewulf G. Strategic Issues in Public-Private Partnerships: an International Perspective. – Blackwell Publishing Ltd., UK, 2006. – P. 16-27

[9] Həmən mənbə.

şərh formasını verir. R.Holland, A.Harrinq, Sellqren, Bennet və Krebs[10] kimi ingilis tədqiqatçıları DÖST-ün idarəetmə mexanizmi tərifin verməyə çalışır.

DÖST-lə aparılan tədqiqatlar işində E.Savaşın[11] araşdırmaları xüsusilə diqqət çəkir. Öz interpretasiyalarında Savaş dövlət və özəl sektor tərəfdaşlığının istənilən nəticələrinin sosial infrastruktur layihələrinin gerçəkləşməsinə xidmət etməsini vurğulayır. E.Savaşla yanaşı Klayn və Teysman, M.Cerrard, H.Van-Heym və A.Akintoe[12], Q.Hoc və K.Qriv DÖST-ləri idarəetmə kateqoriyası kimi nəzərdən keçirir.

Postsovet ölkələrində inzibati amirlik sisteminin dağılması və bazar iqtisadiyyatına keçid prosesində sosial təyinatlı infrastruktur layihələrinin gerçəkləşməsi problemi dövlət özəl tərəfdaşlığı probleminə olan marağı gücləndirmişdir. Yaxın qonşu ölkələrdə bu tip tədqiqatlar aparanlar sırasına A.Alpatov[13], A.Zverev, A.Babayev[14], V.Kamenkov[15], O.A.Yastrebov[16], E.Frolova[17], E.Taqiyev[18], D.Naydenov, A.Smirnov[19],

---

[10] Лукина А.Н. Административно-правовое регулирование государственно-частного партнерства в России: диссертация ... кандидата юридических наук: 12.00.14. - Москва, 2016. – С. 17

[11] Savas E.S. Privatization and Public Private Partnerships. N. Y.: Chatham House Publishers, 2000 P. 105-106

[12] Akintoye A., Beck M. Policy, finance & management for public-private partnerships. / A. Akintoye, M. Beck / Published by Blackwell Publishing Ltd, London, U.K, 2015. – 275 p

[13] Алпатов, А. А. Государственно-частное партнерство: механизмы реализации // А. А. Алпатов, А. В. Пушкин, Р. М. Джапаридзе. — М., 2010

[14] Бабаев Б.Д. Экономика (Экономическая теория): Учебное пособие для вузов / Б.Д. Бабаев. – 4-е изд. - Иваново-Москва – Тверь: Ивановский государственный университет, Московский государственный университет экономики, статистики и информатики, Тверской филиал, 2002. – 480 с

[15] В. С. Каменков , О. М. Куницкая: Правовое обеспечение развития государственно-частного партнёрства в зарубежных странах. Журнал Юридической науки Белорусского государственного университета. Выпуск 1/2013

[16] Ястребов О.А. Создание условий для развития института ГЧП в Российской Федерации. Журнал «Проблема современной экономики» 2010. Стр. 206-208

[17] Фролова. Е.А. Государство в современной экономической теории: кейнсианские, неоклассические и институциональне трактовки проблемы. Вестник ТГПУ. 2000. Выпуск 5 (21). Серия: Экономика. Стр 44-51

A.Mostepanyuk[20], M.Klinova[21], A.N.Lukina[22], N.A.Oreşkova, N.Kvaşnina[23], İ.Sosna, E.Qorçakova[24], L.Minqaleyeva, A.Lukina[25] kimi daxildir.

Baxılan problem Azərbaycanda da xüsusi maraq doğurur və son illərdə istər iqtisadi mexanizm kimi, istərsə də bir dövlət idarəetməsi mexanizmi kimi araşdırılır. R.S.Abdullayeva, A.N.Muradov, P.S.Həsənov, N.A.Əzizzad[26],. Hacızadə E.M[27], Eyvazova S.Ə[28]. Həmzəoğlu, M.S.[29] kimi iqtisadçı alimlər problemin bir çox aspektlərini, Azərbaycanda tətbiq imkanlarını və perspektivlərini araşdırır.

Bütövlükdə tədqiqat mövzusu ilə bağlı elmi ədəbiyyatın təhlili göstərir ki, bu problematikanın müxtəlif aspektləri Azərbaycan və xarici

---

[18] Тагиев Э. Воротников А. М. Состояние государственно-частного партнерства в Азербайджанской Республике. Журнал исследований по управлению том 4 № 5 , 2018. Стр. 28-38

[19] Смирнов А.О. Механизм создания совместного предприятия по реализации проектов ГЧП. Экономика И Управление[] В XXI Веке: Тенденции Развития. Стр 51-56

[20] Мостепанюк А. В. Формирование научных взглядов на сотрудничество государства и частного капитала в рыночной экономике. Современная наука №3 (3) 2010. Стр. 182-186

[21] Клинова М. Взаимодействие государство и бизнеса. Взгляд сквозь время. Экономическая стратегия. № 4/2016. Стр 189-196

[22] Лукина А.Н. Административно-правовое регулирование государственно-частного партнерства в России: диссертация ... кандидата юридических наук: 12.00.14. - Москва, 2016. – С. 17

[23] Квашнина Н. А., Орешкова М.Е. Систематизация подходов к пониманию государственно-частного партнертсвав Россиии за рубежом. Вестник финансового университета. N3. 2011 стр 5-12

[24] Горчакова Е.В. Особенности теории государственно-частного партнерства // Российское предпринимательство. – 2014. – Том 15. – № 3. – С. 25-33

[25] Лукина А.Н. Административно-правовое регулирование государственно-частного партнерства в России: диссертация ... кандидата юридических наук: 12.00.14. - Москва, 2016. – С. 17

[26] Azərbaycanda sosial sahibkarlığın inkişafı: kollektiv monoqrafiya. / Elmi red. N. M. İmanov ; tədqiqatçılar R. S. Abdullayeva, A. N. Muradov, P. S. Həsənov, N. A. Əzizzadə. Bakı: Optimist MMC, 2022. 136 səh

[27] Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı, Elm, 2006. 509 səh

[28] Eyvazova S.Ə. Avropa İttifaqı və Azərbaycan Respublikası əməkdaşlığının hüquqi əsasları. Dərs vəsaiti. Bakı: "AZƏRNƏŞR", 2018, 288 səh

[29] Həmzəoğlu, M. Regionlarda uğurlu dövlət-özəl sektor tərəfdaşlığı. Xalq cəbhəsi.- 2018.- 10 iyul.- S. 12

ölkələrin tədqiqatçıları tərəfindən araşdırılmışdır. Lakin dövlət-özəl tərəfdaşlığı dövlət idarəçiliyinin səmərəliliyinin artırılması mexanizmi kimi sistemli tədqiq edilməmişdir ki, bu da təqdim olunan dissertasiya işinin bu istiqamətdə ilk cəhdlərdən biri kimi dəyərləndirilməsinə imkan verir.

**Tədqiqat obyekti qismində** dövlət orqanları, özəl biznes və dövlət qurumları arasında qarşılıqlı əlaqəni özündə əks etdirən, sosial əhəmiyyətli layihələrin həyata keçirilməsinə və dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasına yönəlmiş dövlət-özəl tərəfdaşlıq (PPP) sistemi çıxış edir.

**Tədqiqatın predmetinə** Dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasına töhfə verən dövlət-özəl tərəfdaşlığının həyata keçirilməsi mexanizmləri, alətləri və şərtləri daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Aparılan tədqiqatın əsas məqsədi Azərbaycan Respublikasında dövlət özəl sektor tərəfdaşlığının idarəetmə mexanizmi kimi effektivliyinin əsaslandırılması və inkişaf perspektivlərinin tədqiqinin aparılmasıdır.

Məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qoyulmuşdur:

1. Dövlət özəl sektor tərəfdaşlığının nəzəri metodoloji əsaslarının tədqiq edilməsi, bu sahədə yanaşmaların gözdən keçirilməsi.
2. Dövlət idarəçilik mexanizmi kimi dövlət özəl sektor tərəfdaşlığının mahiyyətinin, funskiyalarının struktur və əsas təyinatının şərh edilməsi.
3. Dövlət özəl sektor tərəfdaşlığı üzrə beynəlxalq praktikanın öyrənilməsi.
4. Azərbaycanda dövlət özəl sektor tərəfdaşığının idarəetmə mexanizmi kimi mahiyyətinin açıqlanması üçün onun normativ hüquqi bazasının tədqiqi.
5. Azərbaycanda dövlət özəl sektor tərəfdaşlığının inkişaf xüsusiyyətlərinin tədqiqi.
6. Azərbaycanda DÖST mexanizminin perspektivli sahələrinin SWOT analizinin aparılması.
7. İşğaldan azad edilmiş ərazilərdə sosial infrastruktur obyektlərinin bərpası və yenidən qurulması işində DÖST mexanizmlərinin tətbiq perspektivlərinin gözdən keçirilməsi.

**Tədqiqat metodları.** Tədqiqatın vəzifələrinin həlli zamanı

ekspert qiymətləndirmə metodundan və müqayisəli təhlil metodlarından istifadə edilmişdir. O cümlədən Azərbaycanda DÖST mexanizminin tətbiq perspektivlərinin təhlili zamanı SWOT analiz metodundan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Dövlət-özəl tərəfdaşlığının konseptual analizini apararaq belə nəticəyə gəlirik ki, o dövlətin, böhranlar dövründə iqtisadi sektora yardım məqsədi ilə müdaxiləsi prosesi kimi ortaya çıxmış, daha sonradan məhz dövlət maraqlarının, dövlətin cəmiyyət qarşısında mövcud idarəetmə öhdəliklərinin yerinə yetirilməsi zərurətindən irəli gələrək idarəetmə mexanizminə çevrilmişdir. Təsadüfi deyil ki, dövlət özəl tərəfdaşlığı ilə bağlı ilk yanaşmalar sırf iqtisadi, daha sonra isə idarəetmə xarakterli olmuşdur.

2. Dövlət-özəl tərəfdaşlığı dövlət orqanları ilə özəl sektor arasında sosial-iqtisadi əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəlmiş qarşılıqlı fəaliyyət formasıdır. DÖST dövlət və özəl şirkətlər arasında risklərin, resursların və məsuliyyətlərin bölüşdürülməsi prinsipinə əsaslanır ki, bu da hər bir iştirakçıya öz güclü tərəflərinə diqqət yetirməyə imkan verir. Bu cür əməkdaşlıq hər iki tərəfin imkan və resurslarından səmərəli istifadə etməyə imkan verir, istər infrastrukturun qurulması, istər dövlət xidmətlərinin göstərilməsi, istərsə də innovasiyaların inkişafı layihələrinin uğurla həyata keçirilməsi şanslarını artırır.

3. Dövlət-özəl tərəfdaşlıq layihələri yalnız dövlət əhəmiyyətli infrastruktur layihələrin həyata keçirilməsi və sosial xidmətlərin yaxşılaşdırılması sahələrində tətbiq edilə bilər. Onun tətbiq sahəsinin genişlənməsi idarəetmə mexanizmi kimi onun xarakterini dəyişir və dövlətin iqtisadi sektora sonuncunun subyektlərinin mənafelərini qorumaq üçün müdaxiləsinə çevirmiş olur.

4. Dövlət-özəl tərəfdaşlıq mexanizminin tətbiqi işində qanunverici normaların mövcudluğu xüsusi əhəmiyyət kəsb edir. Dünya təcrübəsindən göründüyü kimi bu mexanizmin tətbiqi üzrə dünya dövlətləri dolayı və birbaşa qanunvericilik bazasının mövcudluğu baxımından qruplara bölünür. Təcrübələrdən görünür ki, məhz bu sahədə bilavasitə qanunverici normaların mövcudluğu adı çəkilən mexanizmin

uğurla tətbiqinə daha çox imkan verir. Proses boyunca baş verə biləcək problemlərin
aradan qaldırılmasında birbaşa qanunverici bazaya istinad daha effektiv olur. Beləcə müxtəlif məqamlarla bağlı normativ aktlarda ziddiyətli kəsişmələr aradan qalxmış olur.

5. Bu gün Azərbaycanda DÖST-ün effektiv dövlət idarəçilik mexanizminə çevrilməsini şərləndirən əsas amillər:

Birinci, Neft və qaz gəlirlərinin azalması fonunda iqtisadiyyatın enerji resurslarından asılılığının azaldılmasının hədəf kimi seçilməsi və bununla paralel ölkədə genişmiqyaslı infrastruktur layhələrinin realizəsinə olan ehtiyac və sosial xidmət sektorunun yükünün durmadan artması.

İkincisi, Azərbaycan iqtisadiyyatının xarici investisiyalardan asılılığı fonunda dövlət və iqtisadi subyektlər arasında münasibətləri tənzimələyə biləcək effektiv mexanizmin yaradılması zərurəti.

Üçüncü, 44 günlük Vətən müharibəsinin yekunu kimi Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunması. Postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərdə yenidənqurma işlərinin aparılması, sosial və iqtisadi infrastrukturun bərpası və kütləvi repatriasiya tədbirlərinin həyata keçirilməsinə hazırlıq. Bu məqsədlə dövlət büdcəsindən ayrılmaların miqyasının məhdudlaşdırılması və bu yükün özəl sektorun üzərinə ötürülməsi.

6. Son 30 ildə Azərbaycan DÖST mexanizminin qanunvericlik bazasın mürəkkəb təkamül yolu keçmişdir. Özəl sektorun iştirakı ilə layihələrin yaradılması, həyata keçirilməsi və onlara nəzarət qaydalarını tənzimləyən müvafiq qanun layihələri qəbul edilib. DÖST haqqında vahid qanunverilik aktı hazırlanıb. Bu hüquqi aktlar biznes üçün əlverişli mühit yaradır, xarici investorlar üçün şəffaf şərait yaradır. Bununla belə, bu gün hökumətin DÖST layihələri üçün texniki və metodoloji dəstək verə biləcək xüsusi institutlarının yaradılmasına böyük ehtiyac var. Belə təsisatlar riskləri azaltmağa və özəl sektorda bazara inamı artırmağa kömək edə bilər.

7. İnfrastruktur layihələri, enerji və nəqliyyat Azəbaycanda DÖST-lərin özünü effektiv alət kimi sübut edə biləcəyi sektorlardır. Məsələn, özəl şirkətlərlə birgə həyata keçirilən yol tikintisi və limanın modernləşdirilməsi logistik şəbəkənin təkmilləşdirilməsinə və ölkənin tranzit potensialının artırılmasına kömək edə bilər. Enerji sektorunda özəl

iştirak innovativ həllər və mövcud resurslardan daha səmərəli istifadə etməyə imkan verər. Nəticə etibarı ilə, belə strateji addımlar davamlı iqtisadi artımı təmin edər və Azərbaycanı dünya miqyasında daha rəqabətqabiliyyətli dövlətə çevirə bilər.

**Tədqiqatın elmi yeniliyi.**

- Dövlət-özəl sektor tərəfdaşlığının nəzəri-konseptual əsasları Azərbaycanda ilk dəfə sistemli tədqiq edilmişdir.
- DÖST mexanizminin funksional əsasları və elementləri qarşılıqlı əlaqədə araşdırılmışdır.
- Azərbaycanda DÖST mexanizminin inkişaf xüsusiyyətləri araşdırılmış, onun təkmilləşdirilməsinə dair təkliflər verilmişdir.
- Azərbaycanda dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasının yeni mexanizmi kontekstində DÖST-lərin normativ-hüquqi bazası müəllif tərəfindən sistemli şəkildə işlənmişdir.
- DÖST mexanizminin sosial infrastruktur sahələrində tətbiq xüsusiyyətləri üzrə SWOT analiz aparılmış, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində dövlət-özəl sektor tərəfdaşlığı perspektivləri proqnozlaşdırılmışdır.
- İlk dəfə postmüharibə dövründə iºğaldan azad olunmuş ərazilərdə sosial infrastruktur obyektlərinin bərpası işində DÖST mexanizmlərinin tətbiq perspektivləri təhlil olunmuşdur.

**Tədqiqat işinin approbasiyası və tətbiqi.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət qulluğu və kadr siysəti kafedrasında yerinə yetirilmişdir. Dissertasiyada irəli sürülən ayrı ayrı müddəalar Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qəbul edilən yerli və xarici dövrü elmi nəşrlərdə elmi məqalələr formasında işıq üzü görmüşdür. 2022-ci illərdə "Sivilizasiya" jurnalının 4-cü nörməsində "Dövlət idarəetmə mexanizmi kimi dövlət-özəl tərəfdaşlığının metodoloji təhlili" adlı, "Geostrategiya" jurnalının 6-cı nömrəsində "Dövlət-özəl sektor münasibətləri ənənəvi iqtisadi nəzəriyyələrdə" adlı məqalələr çap olunmuşdur. 2023-cü ildə "Geostrategiya" jurnalının 3-cü nömrəsində "Qərb təcrübəsində dövlət-özəl tərədaşlıq mexanizminin təhlili", "İnsan və Biosfer jurnalında

Azərbaycanda dövlət-özəl tərəfdaşlığının normativ-hüquqi bazası” adlı məqalələr işıq üzü görmüşdür. O cümlədən 2023-cü ildə “Вестник БИСТ” jurnalının 2-59 nömrəsində “Политик государственно-частного партнерства в Азербайджанской Республике” adlı məqalə dərc olunmuşdur. Bundan başqa, 2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında təşkil olunmuş, “Azərbaycanda muasir idarəetme formalari : yeni reallıqlar ve perspektivlər” movzusunda elmi konfransda “Azərbaycanda dövlət-özəl tərəfdaşlığı işğaldan azad edilmiş ərazilərdə bərpa quruculuq prosesi üçün optimal idarəetmə mexanizmi kimi” adlı tezis, Rusiyada keçirilən История, политология, социология, философия: теоретические и практические аспекты: сб. ст. по матер. LXXXI междунар. науч.-практ. конф. № 6(63); Экспериментальные и теоретические исследования в современной науке: сб. ст. по матер. CI междунар. науч.-практ. конф. № 5(93) aspirantların beynəlxalq elmi konfranslarında “Основные направления и перспективы внедрения ГЧП в Азербайджане və Государственно-частное партнерство как инновационный механизм государственного управления” adlı iki tezis dərc olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində dövlət idarəçiliyinin müasir mexanizmi kimi DÖST lərin nəzəri metodolojı analizi aparılmışdır ki, bu da gələcək dəyərli zəmin kimi istifadə edilə bilər.

İşdə dünya ölkələrində DÖST mexanizmlərinin tətbiq xüsusiyyətləri haqqında ətraflı məlumat verilmişdir. Dissertasiyanın eyni zamanda ali məktəblərdə bu sahədə material kimi qiymətli məlumatlarla zəngindir.

Praktiki baxımdan dissertasiyada DÖST mexanizminin mümkün tətbiq istiqamətləri üzrə araşdırmalar aparılmışdır və dövlət orqanları üçün qiymətli təkliflər verilmişdir. Postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərdə sosial infrastruktur obyektlərinin bərpası ilə bağlı DÖST lərlə bağlı müəyyən təkliflər var.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, hər biri üç yarımfəsildən ibarət iki fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

Giriş 20407, birinci fəsil 98292, ikinci fəsil 108388, nəticə 10970, işin ümumi həcmi, 251980 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Doktorant tərəfindən təqdim edilən dissertasiya **Dövlət-özəl tərəfdaşlığının nəzəri metodoloji əsasları** adlanan birinci və **Müasir Azərbaycanda idarəetmə mexanizmi kimi dövlət-özəl sektor tərəfdaşlığının mövcud durumu və tətbiq perspektivləri** adlanan iki fəsildən ibarətdir.

Dissertasiyanın birinci fəslinin birinci yarımfəsili **İdarəetmə kateqoriyası kimi dövlət-özəl tərəfdaşlığının mahiyyət** adını daşıyır.

Qeyd edilən yarımfəsildə dövlət-özəl tərəfdaşlığının nəzəri fundamental əsaslarının formalaşması, onun mahiyyəti, problemlə bağlı yanaşma və hipotezlərin təhlili aparılır. Günümüzdə dövlət-özəl tərəfdaşlığının mahiyyətini ən dəqiq BMT, ATƏT və Dünya Bankı kimi nüfuzlu beynəlxalq təşkilatlar vermişdir. Onların şərhində dövlət-özəl tərəfdaşlığı iki cür təhrif olunur. Birinci halda, milli, beynəlxalq, regional, şəhər, bələdiyyə, iqtisadi, siyasi inkişaf naminə dövlət və biznes münasibəti kimi. İkinci halda, dövlətə və yerli özünüidarəetmə orqanlarına məxsus obyektlərdə dövlət qurumları və özəl sektorun nümayəndələri arasında gerçəkləşdirilən layihə kimi.

Dövlət-özəl tərəfdaşlığı haqqında elmi yanaşma və paradiqmalar ictimai siyasi diskursda birdən birə ortaya çıxmamışdır. Onun dövlət idarəçiliyinin mühüm kateqoriyasına çevrilməsi uzunmüddətli nəzəri metodoloji tədqiqat süzgəcindən keçmişdir. İctimai siyasi və iqtisadi fikir tarixində dövlət-özəl tərəfdaşlıq münasibətləri dövlətin iqtisadi proseslərə müdaxiləsi ilə bağlı baxış sərgiləyən iqtisadi nəzəriyyələrdən sərbəst idarəetmə kateqoriyası kimi menecment nəzəriyyələrinə qədər təkamül yolu keçmişdir. Görünən odur ki, klassik iqtisad məktəbinin nümayəndələri A. Smit və C. Mill, klassik alman tarix məktəbinin təmsilçisi D. List, XIX əsrin 70-90-cı illərində neoklassik siyasi iqtisad məktəbinin təmsilçiləri C. Klark, L. Valras, A. Piqu, II dünya müharibəsindən sonra neoliberalizm cərəyanı (F. Hayek, L. Mizes) dövlət-özəl sektor tərəfdaşlığını sırf iqtisadi münasibətlər sistemi kimi dövlətin iqtisadi proseslərə müdaxiləsi prizmasından aktiv təhlil etmişdir. İqtisadi nəzəriyyələr içərisində bu tərəfdaşlığın təhlili

sahəsində kulminasiya nöqtəsi keynsçilik hesab olunur. C. Keyns dövrünün liberal yanaşmalarından fərqli olaraq iqtisadiyyatın makro səviyyədə tənzimlənməsində dövlətin rolunun zəruri olması iddiası ilə çıxış edir. Eyni zamanda iqtisadçı qeyd edir ki, dövlətin iqtisadiyyata birbaşa müdaxiləsi özəl sektorun təhlükəsizliyi və inkişafı üçün zəruridir. Belə ki, makroiqtisadi səviyyədə dövlət hər şeydən öncə iqtisadi artıma yatırım edir. Keyns və onun ardıcılları dövlətin iqtisadi mühitə hər şeydən öncə dolayı yollarla müdaxiləsinə üstünlük verirdilər. Bu dolayı müdaxilə mexanizmləri kimi dövlətin büdcə və maliyyə-kredit siyasətini əsas götürdülər. Keynsin ardınca bu cərəyanın nümayəndəsi C. Tobin öz baxışlarında dövlət-özəl sektor tərəfdaşlığının müasir şərhlərinə yaxınlaşaraq dövlətin konkret olaraq sosial infrastruktur layihələrinin realizəsində özəl sektorla əməkdaşlıq etməli olması fikrini irəli sürür.

Dövlət-özəl tərəfdaşlığı haqqında qeyd edilən iqtisadi nəzəriyyələr onun nəzəri fundamental bazasını təşkil edir. Bununla belə, XX əsrin 60-cı illərindən etibarən o sərbəst menecment kateqroiyası kimi tədqiq olunmağa başlayır. Sərbəst idarəetmə kateqoriyası kimi dövlət-özəl tərəfdaşlıq Böyük Britaniya və Britaniya ittifaqına üzv olan ölkələrdə xüsusilə geniş yayılmış olur. Təsadüfi deyil ki, dövlət-özəl tərəfdaşlığının müxtəlif institusional tipləri ən çox bu ölkələrdə geniş yayılmışdır.

Böyük Britaniyada dövlət-özəl tərəfdaşlığının əsas tədqiqatçıları M.Bult Sprinq və Q.Devult olur. Məhz onlar ilk dəfə dövlət özəl tərəfdaşlığına “dövlət-özəl əməkdaşlığı dövlət və özəl sektorun subyektləri arasında qarşılıqlı layihələrin qanunla təsdiqlənən realizəsidir” tərifini vermiş olur.

Dövlət-özəl sektor tərəfdaşlığının ən dəqiq şərhini isə E.Savaş vermiş olur. Dövlət və özəl sektor əməkdaşlığı dövlət, biznes və cəmiyyət tərəfindən bu və ya digər ərazi üzrə inkişafın təşkili, əhalinin rifahının yaxşılaşdırılması naminə birgə fəaliyyət formasıdır.

XX əsrin 90-cı illərində DÖST effektiv idarəetmə mexanizmi statusu alır və müstəqil idarəetmə kateqoriyası kimi bu sahənin mütəxəsisləri tərəfindən tədqiq edilir. Əgər ənənəvi iqtisadi nəzəriyyələrdə dövlət-özəl sektor əməkdaşlığı dövlətin iqtisadi proseslərə müdaxiləsi və dövlətin iqtisadi proseslərdə iqtisadi subyekt kimi iştirakı prizmasından təhlil olunurdusa, idarəetmə kateqoriyası

kimi söhbət iqtisadiyyatın özəl subyektlərinə dövlətin cəmiyyət qarşısında məsuliyyətindən irəli gələn funksiyalarının həvalə edilməsindən gedir.

Birinci fəslin ikinci yarımfəsli “**Dövlət-özəl tərəfdaşlığı dövlət idarəetmə kateqoriyası kimi: funksiya, forma və modellər**“ adını daşıyır. Qeyd edilən yarımfəsildə DÖST yəni dövlət özəl tərəfdaşlığının funksional xüsusiyyətləri, onun yaradılmasında əsas məqsədlər, DÖST-lərin yaradılma məqsədləri, o cümlədən DÖST-lərin növlərinin və modellərinin təsnifatı verilmişdir.

Qeyd olunur ki, DÖST-lərin yaradılmasında başlıca məqsəd dövlətin sosial və iqtisadi mühitdə rolu ilə bağlıdır. Dövrümüzdə dövlət sırf idarəetmə mexanizmi olsa da onun ənənəvi funksiyaları tam aradan qalxmamışdır. Dövlət hələ ki, bir çox sahələrdə cəmiyyətin inkişafı üzrə məsuliyyət daşıyır. Bura sosial sfera, xidmət mühiti və mədəni mühitin inkişafı, məişət sektoru daxildir. DÖST-lərin təşkilinin əsas səbəblərindən biri dövlətin bu sektorlar üzrə məsuliyyətini qismən özəl sektorun üzərinə ötürməsidir. Digər bir səbəb dövlət idarəetmə sisteminin effektivliyinin təmin edilməsi, innovativ idarəetmə metodlarına keçiddir. Bu vəzifələr üçün dövlət yararlana biləcəyi üsul və metodları biznes sektorundan götürə bilər. Bunun üçün dövlət və özəl sektor arasında əməkdaşlıq zəruridir və DÖST-lərin təşkili bununla şərtlənir.

Lakin, o da qeyd edilir ki, DÖST-lərn təşkilində yalnız dövlət üstünlüklər əldə etmir. Burada özəl sektor təmsilçiləri üçün də önəmli müsbət səmərə var. Hər iki tərəf üçün əldə edilə biləcək üstünlüklər DÖST-Ün məqsəd və vəzifələrindən asılıdır.

Qeyd edilir ki, DÖST-lərin təşkili zamanı istər dövlət, istər özəl sektor təmsilçiləri bir sıra funskiyaları yerinə yetirmiş olur. Dövlətin yerinə yetirdiyi əsas funksiyalar tənzimləmə, bölüşdürmə və ictimai rifah naminə istehsalın təşkilini stimullaşdırmaqdır. Özəl sektor isə istehsal-təsərrüfat və sərmayə funskiyasını həyata keçirir.

DÖST-lərin özünə gəldikdə isə onu demək lazımdır ki, bu sahədə funskional təsnifatı daha dəqiq Rusiyalı alim İrodova vermişdir. Onun təsnifatına görə DÖST-lərin sosial-istehsal, maliyyə-investisiya, kordinasiya, inteqrasiya, allokasiya, innovasiya, optimallaşdırma kimi funskiyaları var.

Eyni zamanda DÖST-lərin təşkili zamanı gerçəkləşdirilən layihələrin sahələr üzrə təsnifatı aparılır: bura məişət xidmətləri sektoru, səhiyyə sektoru, idman sektoru, təhsil sektoru və yekun mədəniyyət sektoru aid edilir.

O cümlədən, DÖST-lərin növləri qeyd olunur. Müəyyən edilir ki, dünya praktikasında DÖST-lərin təşkilinin əsas formaları bunlardır:

1. Xüsusi idarəetmə müqavilələri.
2. İcarə.
3. Konsessiyalar.
4. Fəaliyyət dövrü müqavilələri.

O cümlədən, yarımfəsildə bütün dünyada qəbul olunmuş DÖST modelləri də təsnifləndirilmişdir. DÖST-lər layihələrin gerçəkləşdirilmə tipinə görə modellərə bölünür. Onun BOT-tikinti, idarəetmə və ötürmə, BOMT-tikinti, mülkiyyət, idarəetmə, ötürmə, BTO-tikinti, təhvil vermə istifadə, BOO-tikinti, mülkiyyət, istifadə, DBFO-layihələndirmə, tikinti, maliyyələşdirmə, istifadə kimi modelləri var.

Dissertasiyanın üçüncü yarımfəsli **"Dünya təcrübəsində DÖST mexanizminin tətbiqi xüsusiyyətləri"** adını daşıyır. DÖST (Dövlət-Özəl Sektor Tərəfdaşlığı) modeli, dövlətin və özəl sektorun əməkdaşlıq etdiyi bir layihə idarəetmə formasıdır. Bu model, xüsusilə məhdud dövlət büdcəsi şəraitində infrastruktur sərmayəsi və dövlət xidmətlərinin göstərilməsi ehtiyaclarını qarşılamaq üçün effektiv bir vasitə kimi qəbul edilir. 1990-cı illərin sonu və 2000-ci illərin əvvəllərində, xüsusən Avropada geniş yayılmışdır.

O vaxtdan bəri, DÖST modelləri nəqliyyat, enerji, su və sosial infrastruktur kimi müxtəlif sektorlarda bir çox layihənin həyata keçirilməsində istifadə olunur. Bu yanaşma, dövlətin maliyyə yükünü azaltmaq, özəl sektorun effektivliyindən və yenilikçi həllərindən istifadə etmək və risklərin bölüşdürülməsi kimi üstünlüklər təklif edir. Lakin, DÖST modelinin uğurlu tətbiqi üçün tərəflər arasında sağlam müqavilələrin qurulması və layihələrin diqqətlə idarə olunması vacibdir.

Qərb dövlətləri Daxili Ölkə Səviyyəsində Təşəbbüslər (DÖST) sahəsində liderlik mövqeyinə malikdirlər. Bunun bir neçə əsas səbəbi var. İlk növbədə, Qərb ölkələri iqtisadi baxımdan daha geniş və müxtəlif sektorlara sahibdirlər, bu da müxtəlif layihə və təşəbbüslər üçün maliyyə tapmaq imkanlarını artırır.

Bununla yanaşı, Qərb dövlətlərində texnoloji inkişaf və innovasiya səviyyəsi yüksəkdir, bu da DÖST vasitəsilə həyata keçirilən layihələrin uğurlu olması üçün şərait yaradır. Eyni zamanda, hüquqi və tənzimləyici çərçivələrin mövcudluğu DÖST-nin həyata keçirilməsini daha asan və effektiv edir.

ABŞ-da Dövlət-Özəl Sektor Tərəfdaşlığının (DÖST) geniş tətbiqi, ölkənin müxtəlif sektorlarında infrastrukturun və xidmətlərin inkişafını dəstəkləyir. Aşağıdakı sahələrdə DÖST mexanizminin tətbiqi geniş yayılmışdır:

1. **Nəqliyyat**: Yollar, körpülər, tunellər və ictimai nəqliyyat sistemləri kimi böyük nəqliyyat layihələrinin maliyyələşdirilməsi və idarə olunması üçün DÖST modelləri geniş istifadə olunur.
2. **Su və tullantıların təmizlənməsi**: Su təchizatı və tullantıların idarə edilməsi sistemlərinin modernləşdirilməsi və səmərəli işləməsi üçün özəl sektorun iştirakına əsaslanan layihələr həyata keçirilir.
3. **Enerji sektoru**: Bərpa olunan enerji mənbələrinin inkişafı, enerji effektivliyinin artırılması və enerji infrastrukturunun təkmilləşdirilməsi sahəsində DÖST modelləri tətbiq edilir.
4. **Təhsil sektoru**: Məktəblərin tikintisi, modernləşdirilməsi və idarə olunması üçün özəl şirkətlərlə əməkdaşlıqlar qurulur.
5. **Səhiyyə sektoru**: Xəstəxanaların və səhiyyə mərkəzlərinin tikintisi və idarə edilməsi üçün DÖST layihələri həyata keçirilir.
6. **Daşınmaz əmlak sektoru**: Şəhər inkişafı, yaşayış komplekslərinin tikintisi və ictimai ərazilərin yaradılması layihələrində dövlət və özəl sektor birgə çalışır.
7. **İnformasiya texnologiyaları**: İT infrastrukturunun inkişafı və kiber təhlükəsizlik layihələri üçün dövlət və özəl sektor arasında əməkdaşlıqlar qurulur.
8. **Müdafiə**: Hərbi obyektlərin tikintisi və idarə edilməsi, eləcə də müdafiə texnologiyalarının inkişafı sahəsində özəl sektorun iştirakı əsaslıdır.

Böyük Britaniyada Dövlət-Özəl Sektor Tərəfdaşlığı (DÖST) sistemi müxtəlif aspektləri ilə diqqət çəkir, bu da onu infrastruktur layihələri üçün effektiv bir model halına gətirir. Bu sistemin əsas xüsusiyyətləri aşağıdakı şəkildə təsvir edilə bilər:

1. **Uzunmüddətli Tərəfdaşlıq:** DÖST, dövlət və özəl sektor arasında uzunmüddətli əlaqələrin qurulmasına imkan yaradır.

Özəl sektor, infrastrukturu layihələndirir, maliyyələşdirir, tikir və idarə edir.

2. **Riskin Bölüşdürülməsi:** Risk ən effektiv şəkildə idarə edə biləcək tərəfə paylanır.
3. **Nominal Dəyər Yaratma:** Layihələrin bütün ömrü boyu xərcləri nəzərə alınaraq qiymətləndirilir. Bu yanaşma, aktivlərin tikintisi, istismarı və saxlanması üçün lazım olan ümumi xərclərin müəyyən edilməsinə imkan yaradır.
4. **İnnovasiya Təşviqi:** Özəl sektor, yeni ideyalar və texnologiyaları inkişaf etdirərək layihələrin effektivliyini artırmağa və xərcləri azaltmağa təşviq edilir.
5. **Şəffaflıq və Hesabatlılıq:** Şəffaflıq və hesabatlılıq tələbləri ilə sistemin idarə olunması təmin edilir. Bu, layihələrin yüksək standartlara uyğun şəkildə həyata keçirilməsini təmin edən nəzarət mexanizmlərini ortaya çıxmasına səbəb olur.

Bu elementlər, Böyük Britaniyada DÖST modelini uğurlu edən amillərdir və layihələrin səmərəli, dayanıqlı və yenilikçi olmasını təmin edir.

Avropa İttifaqı (Aİ) ayrı-ayrı üzv dövlətlərin müxtəlif hüquqi və tənzimləyici çərçivələrə malik olduğu üçün mərkəziləşməmiş yanaşmaya malikdir. Bununla belə, Aİ-də DÖST sisteminin bəzi ümumi xüsusiyyətləri var. Bunlardan bəziləri aşağıdakılardır:

1. DÖST layihələri ilk növbədə yollar, hava limanları və ictimai binalar kimi ictimai infrastruktur layihələrinin reallaşmasında istifadə olunur.

2. DÖST layihələri Aİ-nin dövlət satınalmaları qaydalarına tabedir və Aİ rəqabət qanunlarına riayət etməlidirlər.

3. DÖST müqavilələri adətən uzunmüddətli olur.

4. Özəl tərəfdaş infrastruktur aktivinin maliyyələşdirilməsinə, layihələndirilməsinə, tikintisinə və istismarına cavabdehdir.

5. Dövlət partnyoru aktivin mülkiyyət hüququnu özündə saxlayır və onun təyinatı üzrə ictimai məqsədlər üçün istifadə olunmasını təmin etmək üçün məsuliyyət daşıyır.

6. Dövlət və özəl tərəfdaşlar arasında risk bölgüsü DÖST müqavilələrinin ən mühüm elementidir və Böyük Britaniya ilə bənzərlik təşkil edir.

Avropa İttifaqı, Dayanıqlı Özəl Sektor Tərəfdaşlıqları (DÖST) layihələrini idarə etmək və inkişaf etdirmək məqsədilə bir çox təşəbbüslər həyata keçirir. Avropa Komissiyası bu sahədə xüsusilə fəaldır və strateji investisiyaları təşviq etmək üçün bir sıra strukturlar qurmuşdur. Müxtəlif sahələrdə dövlət və özəl sektor arasında əməkdaşlığı təşviq etməklə Aİ aşağıda qeyd olunan əsas mexanizmləri tətbiq edir:

1. **Strateji İnvestisiyalar üzrə Avropa Fondu (EFSI)**: 2015-ci ildə yaradılmış və Avropa İttifaqında strateji investisiyaları dəstəkləmək üçün nəzərdə tutulmuşdur. Bu fond, əsasən nəqliyyat, enerji və rəqəmsallıq kimi sahələrdə infrastruktur layihələrinin maliyyələşdirilməsini hədəfləyir.
2. **Avropa İnvestisiya Bankı (AİB)**: Aİ-nin əsas maliyyə institutlarından biridir və DÖST layihələrinin maliyyələşdirilməsində əhəmiyyətli rol oynayır. AİB bu layihələri dəstəkləmək üçün müxtəlif maliyyələşdirmə modelləri və kredit imkanları təqdim edir.
3. **Milli səviyyəli proqramlar**: Aİ üzv dövlətləri öz milli strategiyalarını hazırlayaraq DÖST layihələrini həyata keçirmək üçün təchizat və maliyyə imkanları yaradırlar. Bu proqramlar, regional ehtiyacları nəzərə alan lokal təşəbbüslərə dəstək olur.
4. **Dövlət-özəl tərəfdaşlıqlar**: Aİ, nəqliyyat infrastrukturu, bərpa olunan enerji və rəqəmsal xidmətlər kimi sahələrdə dövlət və özəl sektor arasında əməkdaşlığı təşviq edərək inkişaf etdirməyə çalışır. Bu əməkdaşlıqlar layihələrin davamlı, səmərəli və yenilikçi olmasını təmin edir.

Bu təşəbbüslər vasitəsilə Avropa İttifaqı, davamlı inkişafı və iqtisadi böyüməni dəstəkləməklə yanaşı, DÖST layihələrinin uğurla həyata keçirilməsini təmin edir.

Postsovet ölkələrində Dövlət-Özəl Sektor Tərəfdaşlıqları (DÖST) layihələrinin Qərb ölkələrinə nisbətən daha zəif inkişaf etməsi müşahidə olunur. Burada bir neçə əsas səbəb göstərmək olar:

1. **Təcrübənin olmaması**: Postsovet ölkələrində DÖST layihələrinin effektiv həyata keçirilməsi üçün yetərli təcrübə yoxdur. Bu, layihələrin keyfiyyətsiz təşkilinə və icrasına səbəb ola bilər, nəticədə gecikmələr və artan xərclər ortaya çıxır.

2. **Zəif hüquqi və tənzimləyici baza**: Bu ölkələrdə DÖST üçün zəruri olan normativ hüquqi baza zəifdir, bu da investorlar üçün qeyri-müəyyənlik yaradır.
3. **Korrupsiya və şəffaflığın olmaması**: Korrupsiya problemi bir çox postsovet ölkəsində mövcuddur və bu şəffaflığın olmaması ilə birlikdə DÖST layihələrinin effektivliyini azaldır, özəl sektor investisiyalarının cəlb olunmasını çətinləşdirir.
4. **İqtisadi və siyasi qeyri-sabitlik**: Bu ölkələrdə iqtisadi və siyasi qeyri-sabitlik, özəl sektor investisiyalarını çəkindirir və əlavə təhlükəsizlik riskləri yaradır.

Ümumilikdə, postsovet ölkələrində DÖST-ün tətbiqi bəzi uğurlar qazanmış olsa da, bu təcrübələr ümumiyyətlə Qərb ölkələri ilə müqayisədə daha az uğurlu olmuşdur. 1990-cı illərdən etibarən mütəmadi olaraq həyata keçirilən konsessiyalara baxmayaraq, bu layihələrin səmərəliliyi hələ də şübhə altındadır.

Dissertasiyanın ikinci fəsli tamamilə Azərbaycana həsr edilmişdir. İkinci fəsil "**Müasir Azərbaycanda idarəetmə mexanizmi kimi dövlət özəl sektor tərəfdaşlığının mövcud durumu və tətbiq perspektivləri"** adlanır və 3 yarımfəsildən ibarətdir.

İkinci fəslin birinci yarımfəsli **Müasir Azərbaycanda dövlət-özəl tərəfdaşlığının normativ hüquqi əsasları** adını daşıyır və bu yarımfəsildə Azərbaycanda DÖST mexanizminin qanunverici bazasının formalaşması mərhələləri və onun institusionallaşması xüsusiyyətləri təhlil edilmişdir.

DÖST mexanizminin Azərbaycanda hüquqi bazası ilə bağlı ilkin olaraq o fikir əsaslandırılır ki, ölkəmizdə dövlətin özəl sektorda iştirakçılığı Azərbaycan Respublikasının Konstitusiyasının 59-cu maddəsində əks olunmuşdur və bu maddənin ikinci bəndi ölkədə DÖST mexanizminin təşkili üçün əlverişli mühit yaradır.

Ölkəmizdə DÖST mexanizminin hüquqi bazası müstəqilliyin ilk illərindən formalaşmağa başlamışdır. Belə ki, müstəqilliyin ilk illərindən inzibati amillik sistemini bazar iqtisadiyyatı ilə əvəzləməyə başlayan ölkə üçün uzun illər dövlət tərəfindən idarə olunan iqtisadi sektorların özəl sahibkarlıq subyektlərinin üzərinə ötürülməsi mühim əhəmiyyət daşıyırdı və bunun üçün hüquqi baza formalaşdırılmalı idi. İlkin belə sənədlərdən biri 13 yanvar 1995-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən "İnvestisiya fəaliyyəti haqqında"

qanun olmuşdur. Bunun ardınca 9 fevral 1996-cı ildə daha bir mühim qanunvericilik aktı "Dövlət müəssisələrinin müqavilə əsasında idarəetməyə verilməsi haqqında" əsasnamə qəbul edilmişdir. Onu da vurğulamaq lazımdır ki, məhz qeyd edilən əsasnamə üzrə Azərbaycanda ilk DÖST mexanizmi kimi konsessiyaların təşkilinə yol verilməyə başlanmışdır.

Azərbaycanda DÖST-lərin təşkili ilə bağlı qanunvericilik bazası əsasən enerji sektorunu əhatə edirdi. Bu isə enerji sektorunun müstəqiliiyin ilk illərində Azərbaycan iqtisadiyyatının ana xəttini təşkil etməsi idi. Bu mənada Azərbaycan Respublikasının prezidenti Ulu Öndər Heydər Əliyev tərəfindən 30 may 1996-cı ildə təsdiq edilmiş "Enerji resurslarının istifadəsi haqqında" qanun dövlət-özəl tərəfdaşlığının ilkin hüquqi normativ əsaslarından birini təşkil etmişdir.

XX əsrin 90-cı illərində Azərbaycanda sosial infrastruktur layihələrinin həyata keçirilməsi, sosial siyasət infrastrukturlarının yenidənqurması, bərpası və artırılması işinin yoluna qoyulması məqsədi ilə büdcədənkənar vəsaitlərin cəlb edilməsi prosesinə start verilir. Bu işdə qrant vəsaitləri qeyri hökümət vəsaitlərinin bu sahələrə cəlb edilməsi mexanizmi kimi mühim əhəmiyyətə malik idi. 17 aprel 1998-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Qrant haqqında qanunu məzmun baxımından Azərbaycanda dövlət-özəl sektor münasibətlərini tənzimləyən dolayı normativ aktlardan birinə çevrildi.

Azərbaycanda idarəetmə mexanizmi kimi DÖST və onun konsessiya formalarının təşkilinə yol açan mühim qanunvericilik aktlarından biri 13 fevral 1998-ci ildə qəbul edilən "Yerin təki haqqında" qanun olmuşdur. Bu qanunla faktiki olaraq Azərbaycan Respublikasının ərazisində faydalı qazıntı yataqlarının işlənməsi və istismarı sahəsinə özəl sektor təmsilçiləri buraxılırdı.

Yuxarıda qeyd edilmiş qanun uzun illərdən bəri Azərbaycanda neft qaz sənayesi üzrə özəl investorların cəlb edilməsi və əməkdaşlığı üçün əsas olmuşdur. Birbaşa DÖST mexanizminin hüqquqi əsası olmasa da mahiyyət etibarı ilə dövlət-özəl sektor tərəfdaşlığında əhəmiyyətli sənədlərdən biri olmuşdur.

2016 və 2017-ci illərdə Azərbaycanda DÖST mühitinin tənzimlənməsi ilə bağlı bir sıra normativ hüquqi aktlar qəbul edilir. Bunlara aşağıdakılar aiddir:

1.15 mart 2016-cı ildə qəbul edilmiş “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşməsi əsasında həyata keçirilməsi haqqında” qanun.

2. Yuxarıda qeyd edilən qanuna əsasən 07.12.2016-cı ildə Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə təsdiq edilmiş “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən “Tik-idarə et-təhvil ver” modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası”.

3. 22 may 2017-ci ildə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi kollegiyasının təsdiq etdiyi “Tik-idarə et-təhvil ver” modeli üzrə bağlanmış müqavilələr üzrə əməkdaşlıq yardım və qarantiyaları üzrə öhdəliklərin hesablanma Qaydası.

Azərbaycanda bilavasitə dövlət-özəl tərəfdaşlığı haqqında qanun 2022-ci ilin 27 dekabr tarixində qəbul edilmişdir. Bu qanunun Azərbaycan Respublikası Prezidenti tərəfindən rəsmi təsdiqi dövlət və özəl sektor münasibətlərinin qanundan əvvəlki dövr ərzində hansı normativ hüquqi əsaslarla tənzimlənməsini tam şəkildə açıqlayır.

Ümumilikdə XXI əsrin ilk rübündə və ikinci onilliyin sonlarında Azərbaycanda DÖST mexanizminin seçilməsini aktuallaşdıran bir neçə konkret amil olmuşdur. Bunlar:

1. Dünya bazarında neftin qiymətinin kəskin formada düşməsi, dövlət büdcəsinin neft və digər enerji məhsullarının satışından əldə edilən gəlirlərinin kəskin azalması və antiböhran idarəetmə mexanizmlərinin tətbiqinə olan ehtiyac.
2. Ümumdünya COVİD 19 pandemiyasının dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatına və o cümlədən Azərbaycanın iqtisadiyyatına vurduğu zərbə.
3. Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aktuallaşması, erməni təxribatçılarının törətdiyi təxribatlara cavab reaksiyası kimi başlayan yeni müharibə və 44 günlük Vətən müharibəsinin yekunu kimi Azərbaycanın şğal olunmuş torpaqlarının azad olunması. Postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərdə yenidənqurma işlərinin aparılması, sosial və

iqtisadi infrastrukturun bərpası və kütləvi repatriasiya tədbirlərinin həyata keçirilməsinə hazırlıq. Bu məqsədlə dövlət büdcəsindən ayrılmaların miqyasının məhdudlaşdırılması və bu yükün özəl sektorun üzərinə ötürülməsi.

Dissertasiyanın ikinci fəslinin ikinci yarımfəsli "**Azərbaycanda dövlət-özəl tərəfdaşlığının formalaşması və inkişaf xüsusiyyətləri**" adını daşıyır. Qeyd olunmalıdır ki, Azərbaycanda DÖST mexanizminin tətbiqi dövrün ictimai siyasi və iqtisadi zərurətlərindən irəli gəlmişdir. 1990-cı illərdə Sovet İttifaqından müstəqillik qazandıqdan sonra Azərbaycan mühüm iqtisadi problemlərlə, o cümlədən hiperinflyasiya, tənəzzülə uğrayan sənaye və xarici investisiyaların çatışmazlığı ilə üzləşdi. Ölkənin infrastrukturunun, xüsusən enerji, nəqliyyat və telekommunikasiya sahələrində müasirləşdirilməsinə və inkişafına ciddi ehtiyac var idi. Bu problemləri həll etmək üçün Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan hökuməti iqtisadi islahatlar, o cümlədən özəlləşdirmə və liberallaşdırma siyasəti həyata keçirməyə başladı. İnfrastrukturun modernləşdirilməsi üçün əsas vasitələrdən biri dövlət-özəl tərəfdaşlığı modeli idi. Bu modeldə özəl şirkətlər dövlət və özəl sektor arasında risk və mükafatların bölüşdürülməsi məqsədi ilə dövlət infrastruktur layihələrinə sərmayə qoymağa dəvət olunurdu.

Azərbaycanda ilk dövlət-özəl tərəfdaşlığı layihəsi 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"dir. "Əsrin müqaviləsi" Xəzər dənizində dəniz neft yataqlarının kəşfiyyatı və işlənməsi üzrə Azərbaycan ilə BP-nin rəhbərlik etdiyi xarici neft şirkətləri konsorsiumu arasında imzalanmış hasilatın pay bölgüsü sazişi (HPBS) idi. Müqavilə tipik dövlət-özəl tərəfdaşlıq müqaviləsi deyildi, çünki o, ilk növbədə Azərbaycan hökuməti ilə xarici şirkətlər arasında kommersiya müqaviləsi idi.

1999-cü ildə imzalanmış Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri ikinci belə böyük layihə olmuşdur. Layihənin məqsədi Azərbaycanın Xəzər dənizindəki neft yataqlarından xam neftin Rusiyadan yan keçərək Aralıq dənizinə nəqlini və alternativ marşrut təmin etməkdən ibarət idi. Layihəyə BP də daxil olmaqla beynəlxalq şirkətlər konsorsiumu rəhbərlik edib və beynəlxalq bankların kreditləri hesabına maliyyələşdirilib.

BTC layihəsinin uğuru Azərbaycanda gələcək dövlət-özəl tərəfdaşlığı layihələri üçün yol açdı. 2006-cı ildə hökumət Azərbaycan İnvestisiya Şirkətini (AİŞ) təsis etdi və onun üzərinə xarici investisiyaların cəlb edilməsi və ölkədə dövlət-özəl tərəfdaşlığı layihələrinin idarə edilməsi öhdəliyi qoyuldu. AİŞ bir sıra infrastruktur layihələrinə, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinə, Bakı aeroportunun yenidən qurulmasına və Araz çayının suvarma sisteminin inkişafına nəzarət edib.

Azərbaycanda uğurlu dövlət-özəl tərəfdaşlığı layihəsinin digər nümunəsi Azərbaycan, Gürcüstan və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən inşa edilən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun tikintisidir. Layihə Azərbaycan və Türkiyə hökumətləri arasında dəmir yolunun tikintisi və istismarını idarə etmək üçün xüsusi təyinatlı şirkət yaradan birgə müəssisə haqqında sazişi əhatə edirdi.

Azərbaycanda dövlət-özəl tərəfdaşlığının ilk nümunələri xarici şirkətlər üçün hasilatın pay bölgüsü sazişləri və Bakıelektrikşəbəkənin Türkiyənin Barmek Holding A.S. şirkətinə verilməsi olmuşdur. Ümumiyyətlə isə Azərbaycanda sahibkarlığın inkişafı iki mərhələyə bölünür: 2002-ci ildən əvvəlki və 2002-ci ildən sonrakı. 2002-ci ilə qədər ölkə iqtisadiyyatını sabitləşdirməyə və strukturların qurulmasına diqqət yetirilirdi. 2002-ci ildən sonra hökumət sahibkarlığın davamlı inkişafına kömək etmək üçün müxtəlif proqramlar qəbul etdi və qanunvericiliyi təkmilləşdirdi. Sahibkarlar Şurası Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Biznes Tədris Mərkəzləri kimi digər institusional mexanizmlərlə birlikdə dövlət-özəl dialoqunun bir forması kimi yaradılmışdır. Şuranın məqsədi biznes mühitinin yaxşılaşdırılması, sahədəki problemlərin həlli və müvafiq təkliflərin Azərbaycan Prezidentinə təqdim edilməsi olmuşdur.

Azərbaycanda DÖST layihələri müxtəlif sahələrdə, o cümlədən körpülər, tunellər, sutəmizləyici qurğular, qaz kəmərləri, təhsil, səhiyyə, mədəniyyət və turizm obyektləri, idman mərkəzləri, sənaye parkları, dəmir yolu sistemləri üzrə həyata keçirilə bilər. Qanun həmçinin xüsusi iqtisadi zonaları, dəniz və hava limanlarını, yük və sərnişin limanlarını əhatə edir.

Azərbaycanda DÖST sektorunun gələcəyi ümidverici görünür, çünki hökumət infrastrukturun inkişafına özəl investisiyaların təşviqinə güclü sadiqliyini nümayiş etdirir. Bundan əlavə, ölkədə əlverişli

investisiya mühiti və DÖST layihələri üçün möhkəm qanunvericilik bazası mövcuddur. Bütövlükdə, hökumətin özəl investisiyaların təşviqinə və dəstəkləyici hüquqi və tənzimləyici bazanın yaradılmasına sadiqliyi ilə Azərbaycanda DÖST sektorunun gələcəyi ümidverici görünür. Bununla belə, potensial idarəetmə problemlərini həll etmək və DÖST layihələrinin uğurla həyata keçirilməsini təmin etmək üçün davamlı səylərə ehtiyac var.

Dissertasiyanın üçüncü yarımfəsli “**Azərbaycanda idarəetmə mexanizmi kimi dövlət özəl tərəfdaşlığının tətbiq perspektivləri: üstün və zəif tərəflərin təhlili”** adını daşıyır**.**

Qeyd etmək lazımdır ki, qeyd edilən yarımfəsil istinad sənədi əsasında yazılmışdır və Azərbaycanda DÖST mexanizminin tətbiqinin gələcək perspektivləri hədəf olaraq seçilmişdir. Burada ölkədə tətbiq edilən bu mexanizmin zəif və güclü tərəflərinin aydınlaşdırılması üçün SWOT analiz aparılmışdır. Azərbaycanda DÖST ilə əlaqədar ilk təkliflər 2014-cü ildə İqtisadi Tədqiqatlar Mərkəzi və Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun birgə layihəsi əsasında aparılmış “Azərbaycan Respublikasında Dövlət-Biznes Əməkdaşlığı İmkanları" mövzusunda tədqiqat işində verilmişdir.

Tədqiqat İqtisadi Tədqiqatlar Mərkəzinin ekspert qrupu tərəfindən aparılmışdır və tədqiqat işində Azərbaycanda DÖST-ün inkişafı ilə əlaqədar yeddi təklif verilmişdir.

Bu təklifləri bir-bir təhlil edib, müasir dövr üçün nə dərəcədə aktual olduqlarını müəyyənləşdirmək lazımdır. Çünkü sözügedən tədqiqatın aparılmasının üstündən artıq 9 il keçməkdədir və o vaxt üçün aktual olan təkliflərin müasir kontekstdə təhlilinə xüsusi ehtiyac vardır. Ümumilikdə təkliflər belədir ki: bu sahədə bilavasitə qanunvericiliyin hazırlanması (artıq həyata keçirilib); dövlət-biznes əməkdaşlığı layihələrinin tətbiq olunacağı prioritet sahələrin müəyyənləşdirilməsi; əhaliyə kommunal-xidmət göstərən dövlət qurumlarının biznes strukturlarına idarəetməyə verilməsi məqsədi ilə onlarla konsessiya müqavilələrinin imzalanması; İqtisadiyyat Nazirliyinin nəzdində dövlət-biznes əməkdaşlığı layihələrinin idarə olunması, biznes partnyorun seçilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, məsləhət və digər funksiyaları həyata keçirən Dövlət-Biznes Əməkdaşlığının İnkişafı Mərkəzinin yaradılması; Azərbaycan Respublikasında dövlət-biznes əməkdaşlığının inkişafı ilə bağlı konsepsiyanın hazırlanması; Dövlət-

biznes əməkdaşlığı layihələrinin idarə olunması ilə bağlı peşəkar kadrların hazırlanması; Əməkdaşlığa cəlb olunan özəl şirkətlərin şəffaflıq pinsipləri əsasında seçilməsini təmin etmək üçün vətəndaş cəmiyyəti nümayəndələrinin prosesdə iştirakına şərait yaradılmasıdır.

Dissertasiyanın **"Nəticə"** hissəsində elmi araşdırmaya yekun vurulur, ümumiləşdirmələr əsasında nəzəri və praktiki xarakterli tövsiyələr irəli sürülür. Nəticə olaraq belə qənaətə gəlinir ki, dövlət özəl tərəfdaşlığı sosial xidmət və infrastruktur layihələrinin ən optimal şəkildə realizəsi baxımından dövlət idarəçiliyi prosesinə tətbiq edilə bilən ən optimal və kreativ, rasional mexanizmlərdən biridir. Azərbaycan üçün bu mexanizmin səmərəli işlənməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, 44 günlük Vətən müharibəsindən sonra 30 illik işğaldan azad edilmiş ərazilərdə repatriasiya prosesinin tam başa çatması üçün sosial infrastrukturun bərpası baxımından dövlət-özəl tərəfdaşlıq proqramlarının tətbiqi böyük məsrəflərin qarşısını alacaq ən sərfəli mexanizmdir.

**Dissertasiyanın əsas nəticələrini əks etdirən nəşr olunmuş elmi əsərlər:**


1. Dövlət idarəetmə mexanizmi kimi dövlət-özəl tərəfdaşlığının metodoloji təhlili. //Sivilizasiya jurnalı. Cild 11 №4 (53). 2022, səh 37-43
2. Dövlət-özəl sektor münasibətləri ənənəvi iqtisadi nəzəriyyələrdə. //Geostrategiya. Jurnalı. N6 (72), 2022, səh 48-52
3. Qərb təcrübəsində dövlət özəl tərəfdaşlıq mexanizminin təhlili. //Geostrategiya jurnalı N3 (75) 2023, səh 30-33
4. Политика государственно-частного партнерства в Азербайджанской Республике. «Вестник БИСТ (Башкирского института социальных технологий)» 2023 № 2(59), səh 167-174

5. Azərbaycanda dövlət-özəl tərəfdaşlığının normativ hüquqi bazası. //İnsan və biosfer jurnalı. 2023. N 18 Səh. 209-224
6. Azərbaycanda dövlət-özəl tərəfdaşlığı işğaldan azad edilmiş ərazilərdə bərpa quruculuq prosesi üçün optimal idarəetmə mexanizmi kimi.//Azerbaycanda muasir idarəetme formalari : yeni realliqlar ve perspektivlar movzusunda elmi konfrans. Bakı 2024
7. Основные направления и перспективы внедрения ГЧП в Азербайджане// История, политология, социология, философия: теоретические и практические аспекты: сб. ст. по матер. LXXXI междунар. науч.-практ. конф. № 6(63). – Новосибирск: СибАК, 2024. – С. 12-17.
8. Государственно-частное партнерство как инновационный механизм государственного управления //Экспериментальные и теоретические исследования в современной науке: сб. ст. по матер. CI междунар. науч.-практ. конф. № 5(93). – Новосибирск: СибАК, 2024. – С. 154-157

Dissertasiyanın müdafiəsi _____ ___________2025-ci il tarixində saat ________ Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD.2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74.

Dissertasiyanın müdafiəsi 27 fevral 2025-ci il tarixində saat 13:30 Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD.2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 21 yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.12.2024
Kağızın formatı:A5
Həcm: 42.152
Tiraj:100